# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimaisiyasi, publisistik qəzet №16 (1272) 09 may 2025-ci il Qiyməti 1 manat Qəzet 1999-cu ilin oktyabrından çıxır


# CƏMO BƏYİN "SEVGİLİ AZƏRBAYCAN"I



Cəmo Bəyin "Sevgili Azərbaycan" şeiri onun çağdaş himnimizin mətninə çevrilmiş "Azərbaycan Marşı" ("Vətən marşı") deyil, amma eyni mövzuda və eyni ruhda yazılmış, vətənpərvərlik duyğusunun coşub çağladığı misraların, bəndlərin müəllifi - "Cəmo Bəy" sözü abreviatura anlamını da əks etdirmir. O, imperiya zamanında "Tiryakilər" məzhəkəsinin, Cümhuriyyət dönəmində "Tarixi-təbii" kitabının, Sovet dövründə çoxsaylı "Hekayələr" toplularının, lirik və satirik şeirlərin müəllifi, əməkdar müəllim, pedaqoji elmlər namizədi Cəbrayılbəylinin əsl, həqiqi adıdır. "Cəmo Bəy" imzasının yanlış olaraq abreviatura hesab edərək yozmalara əl atanlar nə qədər bəlağətli, pafoslu cümlələrə, fantaziyalara üstünlük versələr də bütün bu hipnozvari parıltı və gurultular tək bir mötəbər faktı əvəz edə bilməz! Və nə edək ki, 1915-1922-ci illərdə onlarla şeirin, hekayənin, məqalənin, məktubun imza yerində yazılmış "Cəmo Bəy" - bugünkü dövlət himnimizin sözlərinin müəllifi Cəbrayilbəylinin adıdır.

Cəmo Bəy Cəbrayılbəyli 1965-ci il iyul ayının 30-da, Şamaxının Çuxuryurd qəsəbəsində, 78 yaşında ürək xəstəliyindən vəfat etmiş, Şamaxıdakı məşhur "Yeddi günbəz" qəbiristanlığında, böyük satirik şair, yaxın dostu Mirzə Ələkbər Sabirin məqbərəsinin bir neçə metrliyində dəfn olunmuşdur. Bu il 30 iyulda görkəmli maarif xadimi, istedadlı şair, nasir və dramaturq Cəmo Bəy Cəbrayılbəylinin vəfatının 60 ili tamam olur...

Əbədiyyətə qovuşmasının 1 illiyi münasibətilə həyat yoldaşı Şəfiqə xanım Cəbrayılbəyli mərhum əri Cəmo Bəyin ədəbi-bədii əsərlərini nəşr etdirmək üçün bir yerə toplamağa başlamışdır.

O, yaxın qohumu Gülsüm Əfəndizadəyə müraciət edərək Cəmo bəyin "Vətənim" şeirini yazıb ona göndərməyi xahiş etmişdir. Gülsüm xanımın (özünün də qeyd etdiyi kimi-A.R.) xəstəliyi bu işdə ləngliyə səbəb olsa da Cəmo Bəy Cəbrayılbəylinin "Vətənim" şeirinin "yadında qalan" mətnini ərəb qrafikası ilə yazır və bazi qeydlərlə Şəfiqə xanıma göndərir:

**"VƏTƏNİM**

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın vətəni!
Səndən ötrü qan tökməgə cümlə hazırıq.
Səndən ötrü can verməgə hamu hazırıq.
Al rəngli bayrağınla məsud yaşa.
Minlərcə can qurban oldı,
Sinən hərbə meydan oldı,
Hüququn dərk edən əfrad,
Hərə bir pəhlivan oldı.
Sən olasan gülüstan,
Sənə hər dəm can qurban.
Sənə bir çox məhəbbət,
Sinəmdə dutmuş məkan.
Namusuvi hifz etməgə,
Torpağuvi bəsləməgə,
Cümlə gənclər möhtacdır.
Azərbaycan, Azərbaycan!
Şanlı vətən..."

Bu şeirin 20 ildən sonra mübahisələrə səbəb olacağını öncə duyan Gülsüm xanım şeirin müəllifi məsələsinə aydınlıq da gətirir: "Müəllifi - əzizimiz, çox hörmətə layiq və malik, mərhum Cəmo bəy Cəbrayılzadədir. Yazılıbdır 1918-minci sənədə, Bakı şəhərində."

Şəfiqə xanıma ünvanladığı həmin vərəqin ar-




xasında isə Gülsüm xanım yazıb: "Mehriban, əziz və dərin ehtiramlı bacı, Şəfiqə səlam!

Xəstəxanada (Mərdəkan) bir neçə gün həkim məni yataqda saxladı. Sizə, çox əzizimizə, xatirələrimizdə həmişə hörmətlə qalan mərhum Cəmo dayının mənim yadımda qalan "Vətənim" adlı şeirini Sizə yadigar olaraq göndərirəm.

Adil (Cəmo oğlu Cəbrayılbəyli-A.R.) balanın sağ və səlamət qayıtması (Adil Cəmo oğlu 1967-ci ildə Zaqatalada baş həkim vəzifəsində işləyirdi-A.R.) habelə bütün ailələrinizlə səlamət və xoşbəxt olmağınız 1-minci arzumdur.

Qohum və dostlara səmimi səlamlarımı yetirməgi Sizdən xahiş edirəm.

Çox hörmətlə, Sizin: Gülsüm x-m. 6.VII.67. Mərdəkan"

Gülsüm xanımın Şəfiqə xanım Cəbrayılbəyliyə göndərdiyi Cəmo bəyin "Vətənim" şeiri bəzi dəyişiklik istisna olunmaqla indiki Himnimizin mətni ilə eynidir.

Sovet rejiminin kifayət qədər güclü olduğu 1967-ci ildə uzun illər yaddaşda yaşadılan sonra ilk dəfə kağıza köçürülən "Cəmo bəy Cəbrayılzadə"nin "Vətənim" əsərini fakt hesab etməyən "qramofon"lara əlavə sözüm yoxdur (Bu yerdə Cəmo Bəyin "Qramofon" məzhəkəsi yada düşür).

Şəfiqə xanım Cəbrayılbəyli həyat yoldaşı Cəmo Bəyin 100-dən çox lirik və satirik şeirlərini, hekayə və xatirələrini toplasa da nəşrinə nail ola bilməmişdir. Həmin qaynaqdan Cəmo Bəyin "Sevgili Azərbaycan" şeirinin ərəb qrafikalı əlyazma nüsxəsindən transliterasiya edərək bir neçə bəndi ilk dəfə oxucuların nəzərinə çatdırılır-təqdim edirəm:

**"SEVGİLİ AZƏRBAYCAN**

Yaşa ey şanlı vətən, sevgili Azərbaycan,
Dostla dostluqla yaşa, el gülü Azərbaycan!

Qara neftin qara düşmənlərinə odlu zəfər,
Ucalan dağların azğınlara qüdrətli sipər,
Afətin da polatdır ona batmaz xəncər,
Doğru tut süngülərin, süngülü Azərbaycan,
Yaşa atəşli vətən, sevgili Azərbaycan!

Yaşa Babəklər eli, parla Cavanşirlər eli,
Yaşa azad vətən, gurla igidlər qəzəli,
Qoç Koroğlu kimilər əzmlə qoymuş təməli,
Düşmənin çax gözünə od mili Azərbaycan,
Dostla dostluqla yaşa, el gülü Azərbaycan!

Möhtəşəm özülünü qoydu müqəddəs əllər,
Ulu dahilər əlilə yaranıb dost ellər,
Baqi hümmətlə yaşa dostlar ilə min illər,
Solmasın çöllərinin sünbülü, Azərbaycan!
Yaşa namuslu vətən, sevgili Azərbaycan!

**Qeyd:** 6 bəndlik şeirin yalnız 3 bəndi təqdim edilir və ilk dəfə yayınlanır. Cəmo Bəy Cəbrayılbəylinin bədii əsərlərinin nəşri nəzərdə tutulmuşdur. Təqdim edilən şeirləri ərəb qrafikalı əlyazmasından müasir əlifbaya çevirəni A.Rüstəmli.

*Bakı, 07.05.2025*

**Bütün reaksiyalar:**

**Bədirxan Əhmədov**:- Ədəbiyyat sənətdir, ədəbiyyatşünaslıq elmdir! Ədəbiyyatın materialı söz, ədəbiyyatşünaslığınkı faktlar, arqumentlərdir. Üstəlik mətnşünaslıq vardır ki, bu da spesifik bir sahədir. Bu gün professor Asif Rüstəmli ölkəmizin ən yaxşı mətnşünaslarından biridir. Onun araşdırmaları sayəsində C.Cabbarlının, B.Abbaszadənin, Ə.Abidin, eləcə də bir çox sənət adamlarının mətnlərinin başqasının adına getməsi dəqiqləşdirilərək müəllifinə qaytarılıb. Xüsusilə, C.Cabbarlınn "Ədirnə fəthi" dram əsərinin tapılıb üzə çıxarılması üçün biz prof. Asif Rüstəmliyə borcluyuq. Xatırladıram ki, bu əsər aktyorlardan birinin əlyazmasında üzə çıxarılıb. İndi prof. Asif Rüstəmli Azərbaycan dövlət humninin müəllifliyi ilə bağlı yeni araşdırma ortaya qoyub. Bəlli ki, bunu qəbul etməyənlər olacaq. İllərdi şeirin müəllifi kimi Ə.Cavad gedir. Bu səbəbdən də prof.Asif Rüstəmlinin arqumentlərinə qarşı faktlar qoymaq lazım gəlir. Ancaq nə görürəm; ehtimallar çox, tək bircə fakt yoxdu. Yazılan şərhlərdə isə ədəbiyyatşünasın, mətnşünasın araşdırmasına ironik münasibət, qəzəb görürəm; bu, məsələyə elmi münasibət deyil. Onun elminə, yazdıqlarına şübhə etmək, onu ideoloji cəbhəyə çəkmək məsələyə aydınlıq gətirməyə xidmət etmir. Sadəcə onun yazdıqlarını düzgün oxumaq lazımdır, obyektivliyi, həqiqəti görmək lazımdır. Onun yazdıqlarını oxumadan, ona qarşı heç bir fakt, arqument qoymadan gördüyü bu işə şübhə ilə yanaşmaq yolverilməzdir.

**(Davamı 16-cı səhifədə)**

# CƏMO BƏYİN "SEVGİLİ AZƏRBAYCAN"I

*(Əvvəli 1-ci səhifədə)*

Kimsə düşünür ki, sözün gücü ilə faktları ört-basdır edə bilər-yanılır. Həqiqət mütləq gec-tez ortaya çıxacaq. Bizim də hər birimizin istəyimiz budur. Unutmayaq ki, hər şeir bir əsərdir; bu bir şeir də ola bilər, roman da. Uzun illərdi ki, Ə.Cavadın "Sədəf" romanını axtarıram, lakin hələ ki, tapa bilməmişəm. Gəlin heç kimin haqqını tapdalamayaq, prof. Asif Rüstəmlinin yazdıqlarına da ideoloji, şübhəçi cəbhədən yanaşmayaq...

**Bütün reaksiyalar:**
***- İsmayil Umudlu, Celal Zengi və başqa 81 nəfər***

**Lətif Babayev: -** Hörmətli professor, fikirlərinizə şərikəm. Mən də əks arqument gətirməyə çalışanlarda, - hamısını oxuduğumu iddia etmirəm, - pafosdan və emosiyadan başqa bir şey görmədim. Əlahəzrət faktın qarşısında hansısa arqument gətirməyə ehtiyac da yoxdur. Ya razılıq əlaməti olaraq susacaqsan, ya da daşıdığın bütün dəbdəbəli titullara baxmayaraq, özünü gülünc vəziyyətdə qoyacaqsan. Seçim sizindir, cənablar.

**Nizami Məmmədov:** - Professor Asif Rüstəmli mətnşünaslıq- tekstologiya sahəsində ardıcıl işləməklə hər bir mətnə , böyüklüyündən- kiçikliyindən asılı olmayaraq ( mikromətn, mətn, makromətn, meqamətn, mətnlərarası əlaqələr), bütün mətnləri konseptual sistem kimi nəzərdən keçirib, obyektiv nəzər nöqtəsi ortaya qoymağa çalışan mütəxəssislərdəndir.Burada ona kömək edən ən vacib yanaşma müəllif+ mətn+ obyektiv reallıq+ mütəxəssis+ oxucu labirintində uğurlu gedişlərə əl atma kimi dialektik yanaşmaya daha çox meydan verməsi aparıcı rol oynayır.Eyni zamanda belə məşğuliyyət bir qədər ağır və üzücüdür. O isə belə mətnləri arasdırmaqdan xüsusi həzz alır. Ona bu istiqamətdə uğurlar diləyirik!

**Əli Şamil:** - Bədirxan bəy, yazınızı gülərək oxudum. Elə bil Siz Azərbaycanda yaşamırsınız, hansısa planetdən yenicə enibsiniz. Qardaşım hansı sahəyə baxsanız haqsızlığı, ədalətsizliyi görəcəksiniz. Çünki, bazar ona köklənib. Asif Rüstəmli haqqında fakta söykənməyərək yazanlar təzə deyil ki? Təxminən 30 ildən çoxdur mətbuatda görmüşəm Asif Rüstəmli hansısı bir yanlışlığa aydınlıq gətirib. faktı dəqiqləşdirib. Yaxşı hada onu görməzdən gəlir, onun min bir əziyyətlə dəqiqləşdirdiyi faktın üstündən sükütla keçib illərə davam edən yanlışları təkrar edirlər. Bu qənaətə gəlmişəm ki, bizdə elmlə məşğul olan alimlərin bir çoxu fakt, sənədlə işləməyə deyil, Sovet dövründə olduğu kimi təbliğata üstünlük verirlər. Hay-küy, pafos baş alıb gedir. Asif Rüstəmlinin onlarla yazısını göstərə bilərəm ki, o faktı dəqiqləşdirib, hqiqəti ortaya qoyub. Amma fakta fikir verən, ciddi araşdırıcının yazısını oxuyan kimdir ki? Oxuyanda da fakta dayanmırlar yoxmaya üstünlük verirlər. Bu yalnız Asifi Rüstəmlinin araşdırmalarına qarşı deyil. Nazir Əhmədli Kameral təsvirləri çap elətdi. Rəsmi dövlət sənədlərinə dayanaraq 19 yüzüldə aşıqlarımızın, el şairlərimizin, siyasət və dövlət xadimlərimizin doğum tarixini ortaya qoydu. Ona qarşı hücumlar necə başladı. Bu hücum edənlərin əksəriyyəti savadsız adamlar deyildi. İçərilərində əməkdar elm xadimləri, professorlar, orden medallılar olan Nazir Əhmədlinin "Nadanlar" adlandırdıqları başladılar hücuma . Ortaya bir dənə fakt qoyan olmadı. Təqir yağdıranın isə sayı hesabı olmadı. Qəribədir ki, ciddi alim saydıqlarım da qaragürha qarşı durmasa da onlara cavab da vermədi. Bəzən altdan-altdan qaragurhu dəstəklədi. Siz "Türkçülüyün üçlü formulu: nəzəri və tarixi aspektləri" kitabını çap etdirdiniz. Nəticə nə oldu sağ ol demək əvəzinə başlandı hücum. Hücum edənlər ortaya fakt qoymaq əvəzinə ölkədə tanınmış, hörmət sahibi olan alimlərin arxasında gizlənərək sizi ittiham etməyə başlarılar. Neyləyim ki, məşhur, hörmətli alimlər ya diqqətsizlikdən, ya əllərində fakt olmadan yanlışlığa yol veriblər. Onlar məşhur, tanınmış, hörmətli alimdir deyə təhrif olunmuş faktlar davam etməlidirmi? Yaxut Ədalət Tahirzadənin Azərbaycan Respublikasının(1918-1920) adı ilə bağlı faktları ortaya qoydu. Başladılar ona da hücuma. Amma ortaya bir sənəd, bir fakt qoyan olmadı. Ən yaxşı halda İstiqlal bəyannaməsindən yapışdılar. Bu uzunluqda yazmaqda məqsədim odur ki, cəmiyyətdə yeniliyi, yeni fikiri, doğrunu qəbul edə biləcək düşüncəli insanlar çox azdır. Yəqin ki, 20-30 il sonra sizlrin ortaya qoyduğu faktları qəbil edənlər, ona tərəfdar çıxanlar çox olacaq. Bu gün sizlərin əleyhinə kəskin yazanlar belə keçmişdə yazdıqlarına göz yumub sizlərin məqalələrindən, kitablarından istifadə edəcəklər.

**Solmaz Rustamova - Tohidi:** - Cəmo bəyin himnimizin sözlərinin müəllifi olduğu həqiqətini təsdiq edən neçə-neçə sübut və dəlilləri bilmək və görmək belə istəməyərək top-tüfənglə qarşılayanların "məntiqi" çox acı hisslər doğurur. Bu zaman həmin "mühafizəkarların" müəllifliyin Əhməd Cavada aid olmasına dair ümumiyyətlə hər hansı bir fakta söykəmnəyərək yalnız konspiroloji üsula əl atması - "cəmo" adını deşifrə etməsi isə ən azı gülüncdür. Əhməd Cavadla Cəmo Cəbrayılbəylini qarşı-qarşıya qoyub, "şairlik, istedad" səviyyəsi və "faciəvi tale" (birinci repressiya olunub, 2-ci Sovet dövrü rahat yaşayıb, öz əcəli ilə ölüb) və s. bu kimi nəzərlərlə müqayisə edərək "üstünlüyü" Əhməd Cavada verməsi isə artıq ictimai əxlaqsızlıqdır, insani, ədalət hisslərini və müəlliflik hüququnu danmaqdır, bilərəkdən yalanla yaşamağı məqbul saymaqdır. Bu "yanaşmalarln" daşıyıcıları, hələ haradan çıxdığı məlum olmayan "Cəmo Hacınski də var" deyə 3-cü adı ortaya gətirənlər arasında deputatdan tutmuş alimə, yazıçıya, şairə qədər tanınmış ziyalıların olması isə bugünkü cəmiyyətin verdiyi "dəyərlər" sisteminin bariz göstəricidir. İndiki zaman, müasir dövr üçün isə çox ağır göstəricidir.

Asif müəllim, nə qədər çətin, gözlənilməz və süni manеələrlə üz-üzə durmusunuz. Sınmayın, geri çəkilməyin. Həqiqət əvvəl-axır öz yerini tutacaq. Bu məsələdə qətiyyən və heç vaxt hər hansı "rəqabətə" girməmiş Cəmo bəylə Əhməd Cavadın ruhları da ümid edək ki, gec-tez rahat olacaq.

**Güldəniz Qocayeva: -** "Yaşa namuslu Vətən, sevgili Azərbaycan"-bu arzunun müəllifinin haqqını necə danmaq olar? İnsaf xatirinə ən azından Cəmo bəyin ruhundan üzr istəməliyik. Asif müəllim, Siz qətiyyətli və işinə məsuliyyətlə, vicdanla yanaşan alim olduğunuzu çoxdan sübut etmisiniz. Növbəti elmi dürüstlüyün qələbəsi naminə mübarizənizdə Sizə uğurlar arzulayır və səfinizdə dayanmağı özümüzə şərəf bilirik.

Cəmo bəyin himnimizin sözlərinin müəllifi olduğu həqiqətini təsdiq edən neçə-neçə sübut və dəlilləri bilmək və görmək belə istəməyərək top-tüfənglə qarşılayanların "məntiqi" çox acı hisslər doğurur. Bu zaman həmin "mühafizəkarların" müəllifliyin Əhməd Cavada aid olmasına dair ümumiyyətlə hər hansı bir fakta söykəmnəyərək yalnız konspiroloji üsula əl atması - "cəmo" adını deşifrə etməsi isə ən azı gülüncdür. Əhməd Cavadla Cəmo Cəbrayılbəylini qarşı-qarşıya qoyub, "şairlik, istedad" səviyyəsi və "faciəvi tale" (birinci repressiya olunub, 2-ci Sovet dövrü rahat yaşayıb, öz əcəli ilə ölüb) və s. bu kimi nəzərlərlə müqayisə edərək "üstünlüyü" Əhməd Cavada verməsi isə artıq ictimai əxlaqsızlıqdır, insani, ədalət hisslərini və müəlliflik hüququnu danmaqdır, bilərəkdən yalanla yaşamağı məqbul saymaqdır. Bu "yanaşmalarln" daşıyıcıları, hələ haradan çıxdığı məlum olmayan "Cəmo Hacınski də var" deyə 3-cü adı ortaya gətirənlər arasında deputatdan tutmuş alimə, yazıçıya, şairə qədər tanınmış ziyalıların olması isə bugünkü cəmiyyətin verdiyi "dəyərlər" sisteminin bariz göstəricidir. İndiki zaman, müasir dövr üçün isə çox ağır göstəricidir.

Asif müəllim, nə qədər çətin, gözlənilməz və süni manеələrlə üz-üzə durmusunuz. Sınmayın, geri çəkilməyin. Həqiqət əvvəl-axır öz yerini tutacaq. Bu məsələdə qətiyyən və heç vaxt hər hansı "rəqabətə" girməmiş Cəmo bəylə Əhməd Cavadın ruhları da ümid edək ki, gec-tez rahat olacaq.

***Məqalə və şərhlər sosial şəbəkədən götürülmüşdür***